

Aida Eyvazlı

## Aida Eyvazlının “Şəhid hekayələri” silsiləsindən

# Polad Həşimovun təriflədiyi Babək Ramaldanov kim idi...

## Şəhidin həyat hekayəsi

**Taylı-tayını tapanda, ulduzları barışanda cütlüklər xoşbəxt olurlar. Aygün və Babək gözütox, görüb-götürmüş ailələrdə böyümüşdülər. Varlı-dövlətli deyildilər. Sovet şinelindən çıxan hər iki ailə - Ramaldanovlar və Rəfiyevlər ailəsi Qaraşəhərdəki məhəllədə qonşuluqda yaşayırdılar. Uşaqlar da Milli Qəhrəman Tahir Bağırov adına 59 saylı məktəbə gedirdilər. Bu məktəbdə Aygünün də, Babəkin də ata-anası oxumuşdular. Öz halal zəhmətləri ilə ocaq qurub, ev tikib, həyatlərini, yurdarını abad etmişdilər. Heç vaxt şəhərin bu hissəsindən mərkəzə getmək arzusunda olmamışdılar...**



*Aygün aprelin 16-sı səhər yuxudan ayılıb baxçaya çıxdı. Axşam kiçik oğlu Süleymanın 11 yaşı tamam olmuşdu. Şəhid olmuş həyat yoldaşı Babəkin atası və anası tort da alıb gətirmişdilər. Babaları-nənələri başına yığılıb doğum gününü qeyd etdilər uşağın. Hamı var idi, təkcə Babək yox idi. Onsuz da gecəni səhərə qədər gözlərinə yuxu getmədi gəlinin. Aranı-dağa, dağı arana aşırdı. Babəkin bu qapıdan əlində çiçək dəstələri ilə girdiyi günlər gözlərinin önündən kino lenti kimi keçdi. Bu gün isə Babəkin şəhid olduğundan düz 6 ay keçirdi. Bir azca bağçada gəzişdi. Bu sərin yaz səhərində birdən gözü nar ağacının altındakı üzü günəşə boy vermiş bir tək çiçəyə sataşdı. Yaxın gəldi... Diqqətlə baxdı... Elə bil ki, canından üşütmə keçdi... Anasını çağırdı. “Ay ana, ay ana, bura gəl, baxçamızda Xarı bülbül” gülü bitib.”.*

Anası Nadiyə qızının səsinə həyətə endi. Diqqətlə baxıb, güldən bir şey anlamadı. Dedi ki, ay qızım, mən xarıbülbül gülü tanımıram axı...

*-Ay ana, dağlarda, Şuşada, Şamaxıda bitən güldür də... Şəhidlərimizin şərəfinə onu indi ulduz edib sinəmizə taxırıq...*

*-Həəə, ay qızım, ay Aygün, Qaraşəhər hara, belə gül hara? Axı, deyirlər, o Qarabağda bitir...*

-Ay ana, bu gün Babəkin şəhid olmasının 6 ayıdır. Axşam da Süleymanın 11 yaşı idi. Bu Babəkdir, aprelin 4-də ad günümdə mənə gül gətirmədi, indi uğrunda şəhid olduqları Şuşanın gülünü mənə göndərib. Ana, vallah, bu Babəkdir, - deyib, gözlərinin yaşını tökdü Aygün... Yerə çöküb torpağın qoynundan baş qaldıran Xarı bulbul çiçəyini sevib-oxşadı, ağladıg

Nadiyə yenə əl-ayağa düşüb qızını sakitləşdirməyə çalışdı... Babək şəhid olandan belə idi günləri, ayları...

Uşaqlar dərsdən gələndən sonra çiçəyi onlara da göstərdi Aygün. Uşaqlar da bu çiçəyin ataları Babək olduğuna inandılar. Çiçək solana qədər onun başına dolandılar, qorudular.

Günlərin bir günü Süleyman ağlamsınaraq böyük qardaşı Ramaldana dedi ki, qaqa, gülümüz soldu, ata daha gəlməyəcək?! Ramaldan qardaşının boynunu qucaqlayıb: “Yox, Süleyman, elə demə, gələn yazda yenə gələcək...” - dedi.

“Eh mən istəyirəm ki, tez gəlsin. Yadındadır, evimizə göydən hörümçək enəndə, nənə deyirdi ki, atanız harada olsa, bu gün gələcəkg İndi heç evimizə hörümçək də gəlmirg”, - söylədi Süleyman.



İndi mehrini nişanələrə, əlamətlərə salmışdı Aygün və övladları... Gördükləri yuxularında, göydə buludların hərəkətində, pəncərələrinə qonan bir quşun nəğməsində, tavandan sallanan hörümçəyin tor yolunda Babəki axtarırdılar...



Evləndikdən sonra Aygün də gənc həyat yoldaşına qoşulub Naxçıvanda, Pirəkəşküldə, Murovda, Tovuzda, Gəncədə əsgər oldu. Babək Ramaldanov bayramlarda, doğum günlərində xidmət etdiyi bölgələrin dağındanyamacından çiçək dəstələri bağlayıb sevgilisinə hədiyyə etdi. Aygün üçün bu çiçəklər brend dükanlarda satılan çiçəklərdən daha əziz, daha qiymətli idi.

***Taylı-tayını tapanda, ulduzları barışanda cütlüklər xoşbəxt olurlar. Aygün və Babək gözütox, görüb-götürmüş ailələrdə böyümüşdülər. Varlı-dövlətli deyildilər. Sovet şinelindən çıxan hər iki ailə - Ramaldanovlar və Rəfiyevlər ailəsi Qaraşəhərdəki məhəllədə qonşuluqda yaşayırdılar. Uşaqlar da Milli Qəhrəman Tahir Bağırov adına 59 saylı məktəbə gedirdilər. Bu məktəbdə Aygünün də, Babəkin də ata-anası oxumuşdular. Öz halal zəhmətləri ilə ocaq qurub, ev tikib, həyatlərini, yurdarını abad etmişdilər.*** Heç vaxt şəhərin bu hissəsindən mərkəzə getmək arzusunda olmamışdılar. Yaşadıqları məhəllə Qarabağ döyüşlərinin Milli Qəhrəmanı Kazımağa Kərimovun adını daşıyırdı.



Ailələrin oxşar cəhətinin biri də o idi ki, uşaqların hamısı dərslərində davamiyyətli və intizamlı idilər. Ramaldanovların ailəsindən Babəkin və Raufun, Rəfiyevlər ailəsindən Aygünün və qardaşının şəkilləri həmişə şərəf lövhəsində olardı. Babək Aygündən 3 yaş böyük idi. Aygünün Babəklə bir gizli rəqabəti var idi. Elə ki, Babək hansısa olimpiada və ya dərs yarışmasında qalib gəlirdi, Aygün ondan arxaya qalmaq istəmirdi. Baxmayaraq ki, sinif və yaş fərqləri var idi, Aygünə elə gəlirdi ki, Babək ancaq onun uğurlarına şərik olmaq, ondan qabağa keçmək istəyir... 9-cu sinfə keçəndə Babək sənədlərini C.Naxçivanski adına hərbi liseyə verdi. Aygün bu xəbərdən çox sevindi. Ona görə sevinirdi ki, indi məktəbin şərəf lövhəsində birinci onun şəkli olacaqdı. Beləcə məktəbi bitirdilər. Aygün Azərbaycan Dillər Universitetinin ingilis filologiyası fakultəsinə qəbul olub, təhsil ocağının magistr pilləsini 2007-ci ildə fərqlənmə diplomu ilə bitirdi. Babək isə təhsilini Azərbaycan Ali Hərbi Məktəbində davam etdirdi. Bir növ, ailə dinastiyasına sadiq qaldı. Yaxın qohumları Şair Ramaldanov, İsmayıl Ramaldanov, Elman Ramaldanov da peşəkar və adlı-sanlı hərbçi idilər. Bundan başqa, Ramaldanovlar nəslində 15-dən artıq hərbi təhsilli qohum-əqraba var idi. Onların hər biri Qarabağ döyüşlərində yaxından iştirak etmişdi, aralarında polkovnik rütbəsində korpus komandiri vəzifəsinə qədər yüksəlmişi də var idi.

Babək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini 2003-cü ildə fərqlənmə ilə bitirdi. Hərbi xidmət yerləri isə ən çətin mövqelərə düşdü. Hər dəfə onu ağır və çətin şəraitdə xidmətə təyin edəndə, əhvalı korlanmırdı. Hətta atası Meyvəddin kişi narahat olaraq oğlunun təyinat yerinin dəyişilməsini istəsə də, Babək belə fikirləşirdi ki, əsil hərbçi üçün yüngül döyüş şəraiti, xidmət şəraiti ola bilməz. Elə ona görə də 1991-ci ildən düşmən ermənilərlə gecə-gündüz üzbəüz dayanan Naxçıvan Muxtar Respbilkasında xidməti də özünə şərəf saydı. 2004-cü ildən 2014-cü ilə qədər burada, 2015-2017-ci illərdə Sumqayıt və Pirəküşküldəki hərbi xidmətlərdə zabit şərəfinə sadiq qalaraq çalışdı. 2017-2019-cu ildə isə Rusiya Federasiyasının Frunze adına Ali Ümumqoşun Akademiyasında ikiillik ali hərbi kursu keçdi. Böyük dayısı Şair Ramaldanov da hələ sovet dönəmində burada təhsil almışdı. Rusiya Federasiyasının Frunze adına Hərbi akademiyasını uğurla bitirib, geri dönəndən sonra, o artıq polkovnik-leytenant rütbəsinə layiq görülmüşdü. 2019-cu ilin sentyabrından onu Tovuz qarnizonunda briqadanın qərargah rəisi təyin etdilər.

*Bu ərazidə xidmət edəndə Şəmkir Korpusunun qərargah rəisi general-mayor Polad Həşimov onun rəhbəri olduğu briqada qərargahnı yoxlamaya gəlir. Şəxsi heyət ilə görüşdə Babək Ramaldanov generalın qarşısında çox məsuliyyətli və hərtərəfli*



*məruzə edir. General Polad Həşimov üzünü ona tutub: “Cənab Ramaldanov, mən çoxdandır ki, belə zabit məruzəsi eşitmirəm. Çox razı qaldım, həzz aldım. Sən işləyən adamsan. Sənin parlaq gələcəyin var”- deyir. Şəxsi heyətin qarşısında əməyinə verilən dəyərdən çox sevinir Babək. Bunu ətrafdakılara büruzə verməsə də, ürəyində qürur hissi keçirir.*

(ardı gələn sayımızda)